# ABİTURİYENTLƏRİN NƏZƏRİNƏ!

**2019/2020-ci tədris ilində Lənkəran Dövlət Universitetinin (LDU) bakalavr səviyyəsinə I turdan qəbul olunmuş abituriyentlər aşağıda göstərilən sənədləri 2019-cu il avqustun 15-dən 27-dək, II turdan qəbul olunmuş abituriyentlər isə (əlavə yerləşdirmənin nəticəsində) avqustun 23-dən sentyabrın 2-dək LDU-da yaradılmış Sənəd Qəbulu Komissiyasına şəxsən təqdim etməklə qeydiyyatdan keçməlidirlər:**

1. Şəxsiyyət vəsiqəsinin əsli və 2 ədəd surəti;
2. Təhsil haqqında sənədin əsli (attestat və ya təhsilin əvvəlki mərhələsini bitirdiyi haqda sənəd);
3. Tibbi arayış (forma 086);
4. Fotoşəkil (rəngli, 3*4 ölçüdə) – 6 ədəd (şəkillərin arxasında tələbənin adı, soyadı, atasının adı və ixtisası yazılmalıdır;
5. İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin əsli və 2 ədəd surəti (oğlanlar üçün);
6. LDU-ya qəbul olunma haqqında Dövlət İmtahan Mərkəzinin (DİM) saytından götürülmüş bildiriş (DİM-in saytından çap edilir). Həmçinin, abituriyent elektron qeydiyyatdan keçmək üçün iş nömrəsini təqdim etməlidir.
7. İllik təhsil haqqının tam məbləğdə ödənilməsi haqqında qəbzin əsli və surəti (ödənişli əsaslarla qəbul olanlar üçün). Ödəniş Kapital Bank filiallarında ödəniş terminalları vasitəsi ilə LDU-nun müvafiq hesabına ödənilməlidir. (Həmçinin, ödəniş qəbzində abituriyentin soyadı, adı, atasının adı, şəxsiyyət vəsiqəsinin seria nömrəsi və təhsil alacağı ixtisasın adı qeyd olunmalıdır. Əlavə olaraq LDU-nun bank rekvizitləri səhifənin sonunda göstərilmişdir).

   ***Təhsil haqları ilə bağlı hər növ əlavə məlumat üçün telefon: (+994) 025 255 07 10.***
8. Sənədlər üçün qovluq (dəmirli).

**“AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU”na əsasən “Xüsusi güzəşt və imtiyazları olan tələbələr”dən tələb olunan sənədlər:**

1. Şəxsiyyət vəsiqəsinin əsli və 3 ədəd surəti;
2. Təhsil haqqında sənədin əsli (attestat və ya təhsilin əvvəlki mərhələsini bitirdiyi haqda sənəd);
3. Tibbi arayış (forma 086);
4. Fotoşəkil (rəngli, 3*4 ölçüdə) – 6 ədəd;
5. İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin əsli və 2 ədəd surəti (oğlanlar üçün);
6. LDU-ya qəbul olunma haqqında Dövlət İmtahan Mərkəzinin (DİM) saytından götürülmüş bildiriş (DİM-in saytından çap edilir). Həmçinin, abituriyent elektron qeydiyyatdan keçmək üçün iş nömrəsini təqdim etməlidir.
7. Sənədlər üçün qovluq (dəmirli).

***Əlavə olaraq,***

**1. Məcburi köçkün** statusu olan Azərbaycan Respublikası vətəndaşları:

1.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
1.2. Abituriyentin cari ilin sonunadək qeydiyyatdan keçirilmiş məcburi köçkün vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
1.3. Valideynlərinin şəxsiyyət vəsiqələrinin surəti;
1.4. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin surəti;
1.5. Valideynlərinin məcburi köçkün vəsiqələrinin surəti.

***Qeyd:*** *Bütün sənədlər əsli ilə təqdim olunmalıdır.*

**1. Hər iki valideynini itirmiş və yaxud bir valideyni vəfat etmiş, o biri valideyni isə I və ya II qrup əlil olan valideyn himayəsindən məhrum olmuş *23 yaşınadək*** şəxslər:
1.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
1.2. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
1.3. Vəfat etmiş valideynin ölüm haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti və digər valideynin şəxsiyyət vəsiqəsinin surəti, I və ya II qrup əlillik haqda kitabçanın notarial qaydada təsdiq edilmiş surəti.

***Qeyd:*** *Bütün sənədlər əsli ilə təqdim olunmalıdır. Əlillik arayışı müddətsiz deyilsə, göstərilən müddətə illik təhsil haqqı ödənişindən azad olunurlar.*

**2. I və ya II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək** uşaqlar:

2.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
2.2. I və ya II qrup əlillik haqda kitabçanın notarial təsdiqli surəti;
2.3. Valideynlərin şəxsiyyət vəsiqələrinin surəti;
2.4. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin surəti;

***Qeyd:*** *Bütün sənədlər əsli ilə təqdim olunmalıdır. Əlillik arayışı müddətsiz deyilsə, göstərilən müddətə illik təhsil haqqı ödənişindən azad olunurlar.*

**3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatlarla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən** vətəndaşların uşaqları olan tələbələr barədə:

**3.1.Şəhid ailəsinin üzvü** olan abituriyentlər:

3.1.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
3.1.2. Notarial qaydada təsdiq olunmuş şəhid ailəsi vəsiqəsinin surəti;
3.1.3. Mərhum valideynin ölüm haqqında şəhadətnaməsinin notarial təsdiqli surəti və digər valideynin şəxsiyyət vəsiqəsinin surəti;
3.1.4.Valideynlərinin nigah haqqında şəhadətnaməsinin notarial təsdiqli surəti;

***Qeyd:*** *18 yaşı tamam olan abituriyentlər şəhid ailəsinin üzvü kimi müstəqil vəsiqə almalıdır və illik təhsil haqqı ödənişindən* ***23 yaşı tamam olana*** *kimi azad olunurlar. Bütün sənədlər əsli ilə təqdim olunmalıdır.*

**3.2.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı **əlil olmuş** vətəndaşların övladları:
3.2.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
3.2.2. Valideynlərinin şəxsiyyət vəsiqələrinin surəti;
3.2.3. Valideynlərinin nigah haqqında şəhadətnaməsinin surəti;
3.2.3. Notarial qaydada təsdiq edilmiş "Əlillik" barədə kitabçanın surəti (Əlilliyin səbəbi yuxarıda göstərilən kimi olmalıdır, həmçinin əlillik arayışı müddətsiz deyilsə, göstərilən müddətə illik təhsil haqqı ödənişindən azad olunurlar).

***Qeyd:*** *Bütün sənədlər əsli ilə təqdim olunmalıdır.*

**3.3.** Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda **həlak olan**, hərbi əməliyyatlarla əlaqədar **itkin düşən** və **məhkəmə tərəfindən ölmüş elan edilən** vətəndaşların övladları:
3.3.1. Abituriyentin doğum haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
3.3.2. Ailə tərkibi haqqında arayış;
3.3.3.Səbəbi göstərilməklə ölüm haqqında şəhadətnamənin notarial təsdiqli surəti (itkin düşənin ölmüş elan edilməsi haqqında məhkəmənin qərarı) və digər valideynin şəxsiyyət vəsiqəsinin surəti.

***Qeyd:*** *Bütün sənədlər əsli ilə təqdim olunmalıdır.*

**Lənkəran Dövlət Universitetinin cari bank rekvizitləri:**

| | |
|---|---|
| **Valyuta:** | **AZN** |
| **Benefisiarın Bankı:** | **Kapital Bank ASC Lənkəran filialı** |
| **Filialın Kodu:** | **200383** |
| **VÖEN:** | **9900003611** |
| **SWIFT kod:** | **AIIBAZ2X** |
| **Müxbir hesab:** | **AZ37NABZ01350100000000001944** |
| **Benefisiarın adı:** | **LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ** |
| **Hesab №** | **AZ97AIIB33080019443870045138** |
| **VÖEN:** | **2600135481** |

**Elanda göstərilmiş müddətdə qeydiyyatdan keçməyən abituriyentlər LDU-nun tələbələri sırasına daxil edilməyəcəkdir!**

**Sənədlərin qəbulu və tələbələrin qeydiyyatı hər gün (şənbə, bazar və bayram günlərindən başqa) saat 09:00-dan 17:00-dək aşağıdakı ünvanda aparılır:**

**Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı - 50, LDU-nun İnzibati binası.**

**Telefonlar: (+994) 025 255 25 88 daxili şəbəkə çıxış; 025 255 07 10 mühasibatlıq.**

**Faks: (+994) 025 255 27 86.**

**REKTORLUQ**